# HƏBİBOV RƏFAEL ŞƏRAFƏT OĞLU



Həbibov Rəfael 20 aprel 1964-cü ildə Əli Bayramlı (indiki Şirvan) şəhərində doğulmuşdur. 1981-ci ildə Əli Bayramlı şəhər 14 saylı orta məktəbi bitirmişdir. Bir ildən sonra hərbi xidmətə çağırılmışdır. 1984-cü ildə Baltik qoşunlarında hərbi xidmətini başa vuraraq, Kaunas Gizirlər Məktəbinə daxil olmuşdur. Məktəbi bitirdikdən sonra Kutaisi ətrafındakı hərbi hissələrdən birinə göndərilmişdir. 1986-cı ildə hərbi xidmətini Əfqanıstanda davam etdirərkən orada gedən döyüşlərin birində yaralanmışdır. Müalicədən sonra yenə hərbi xidmətə qayıdır. Döyüşlərdə göstərdiyi rəşadətə görə medallara, Fəxri fərmanlara layiq görülür. R. Həbibov 1988-ci ildə Bakıya dönmüşdür. 1992-ci ildə Milli Ordunun ilk zabitlərindən olmuşdur. O, leytenant rütbəsi ilə 1992-ci il mayın 23-də Qarabağa - döyüş bölgəsinə göndərilmişdir. Təzəkənd, Narıştar, Zod, Ala Qaya, Çərəktar, Ağdaban, Çapar kəndləri uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, Kəlbəcər uğrunda gedən döyüşlərdə fədakarlıq göstərmiş və düşmənin PDM-24 tipli zirehli maşınını heyət ilə birlikdə sıradan çıxarmışdır. Cəsur leytenant 1992-ci il iyulun 7-də Kəlbəcər döyüşləri zamanı qəhrəmancasına vuruşmuş ağır yaralanaraq həlak olmuşdur. Əli Bayramlı şəhər qəbristanlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı Fərmanı ilə leytenant Həbibov Rəfael Şərafət oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Təhsil aldığı Şirvan şəhər 14 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Büstü qoyulmuşdur.